Siz, əziz Qazaxlılar! Burada həm öz torpağınızı qoruyursunuz, həm Azərbaycanı qoruyursunuz. Siz bütün Azərbaycan xalqının dayağısınız.
Heydər Əliyev.

GÖYƏZƏN

QAZAX RAYONUNUN İCTİMAİ - SİYASİ QƏZETİ

№ 15 (9223) | 16 avqust 2016-cı il | Qəzet 1932-ci ildən çıxır | Qiyməti 50 qəpik

DÜNYA İLHAM ƏLİYEVİ HƏM DƏ MAHİR DİPLOMAT KİMİ TANIYIR

Onun dövlətlərarası münasibətlərin yenidən qurulması sahəsində gördüyü işlər daim təqdir olunur

MƏHARƏT

XX əsr dünyaya iki müharibə "bəxş" etdi!

Bu müharibələr və əsrin müxtəlif bölümlərində törədilən hadisələr nəticəsində 50 milyondan çox insan zorakılıqların qurbanı oldu!

Nə qədər talelər yarıda qırıldı, insanlara ömürlərinin sonuna qədər çəkəcəkləri sağalmaz yaralar vuruldu!

XXI əsr ilk dünya müharibəsinin başlandığı (1914-cü il) analoji dövrü keçib!

Hələ ki dünya müharibəsi baş verməyib!

Amma "dünya yeni müharibəyə hamilədir!" - deyənlər də çoxdur!

Doğrudur, yeni dünya müharibəsi başlamayıb. Təəssüf ki, XXI əsrin özünəməxsus müharibələrində qan axmaqda, insan taleləri şikəst olmaqdadır.

"Rəngli inqilablar", "ərəb baharları", "demokratiya uğrunda döyüşlər" bir vaxtlar sakit və firavan yaşayan ölkələri qan çanağına çevirir, yaşadıqları ölkəni insanlar üçün cəhənnəmə döndərir, evlərini və güzəranlarını pozub dağıdaraq "qaçqın ömrü" yaşamağa vadar edir.

Hələ dünyanı çalxalandıranların, bulandıranların neçə-neçə məkrli planları "icra növbəsi"ni gözləyir!

Belə bir mürəkkəb dövrdə, "sürprizlər"lə dolu zamanda ölkəni salamat saxlamaq, xalqı və dövləti təhdidlərdən qorumaq, üstəlik, inkişaf etdirmək çox çətin və mürəkkəb vəzifədir. Xüsusən ərazisinin iyirmi faizi düşmən işğalında olan və hər an müharibənin alovlanması real görünən Azərbaycan kimi bir diyarda!

Deyir, Allah-Təala bir tərəfdən alanda, o biri tərəfdən verir! Xoşbəxtlikdən xalqımızın cənab İlham Əliyev kimi dünyada tanınan və sevilən lideri, hadisələri qabaqlamağı bacaran uzaqgörən dövlət başçısı, beynəlxalq səviyyəli siyasətçisi vardır!

Möhtərəm İlham Əliyev həm də özünü mahir diplomat kimi də təsdiq edib!

HİKMƏT

Bu nə hikmətdir ki, ərazicə kiçik, torpaqlarının bir qismi işğal edilən və müstəqillik yaşı vur-tut 25 olan Azərbaycan böyük dövlətlərlə uğurlu münasibətlər qurur, əməkdaşlıq edir və bundan hamı faydalanaraq razı qalır?

Əslində, bu sualın cavabı özündə ifadə olunub!

Azərbaycan öz münasibətlərində daim düzgün və səmimidir, əməkdaşlıqda möhkəm və etibarlıdır, təkcə özünün yox, digər müttəfiqlərinin də maraq və mənafeyini əvvəldən axıradək nəzərə alır!

Azərbaycanın müstəqil daxili və xarici siyasətini müəyyən edən isə dünyanın ən yüksək reytinqli dövlət başçılarından sayılan cənab İlham Əliyevdir!

İlham Əliyev uzaqgörən, düşünülmüş və müstəqil siyasət ustasıdır!

Yorulmadan, gərgin və səmərəli fəaliyyət göstərməyi, ən yüksək nəticəyə nail olmağı hamıdan yaxşı bacarır!

Qısa dövr ərzində Azərbaycanı uğurla dünya birliyinə inteqrasiya edib, dünyanın maraqlarını ölkəmizin maraqları ilə üzvi surətdə əlaqələndirib!

İlham Əliyev dünyanın ən mötəbər beynəlxalq tədbirlərinin sevilən və arzuolunan dəvətlisinə çevrilib!

Hazırda dünyanın elə bir dövləti yoxdur ki, onun ən yüksək səviyyəli rəsmisi ölkəmizə qonaq gəlməsin!

Azərbaycan həm də beynəlxalq tədbirlərə qonaqpərvərliklə evsahibliyi edən məkandır!

Heç bir dövlət başçısı başqa bir ölkəyə elə-belə, necə deyərlər, "havasını dəyişməyə" getmir. İşgüzar və rəsmi səfərlər, hər hansı beynəlxalq tədbirdə iştirak müəyyən məqsəd daşıyır, dövlətin qarşısında duran vəzifələrin həllinə xidmət edir. Dövlətlərarası münasibətlərin qurulması və inkişafı milli maraqlara söykəndiyindən dövlətin təmsilçisi də hər bir görüş və danışıqdan, ünsiyyətdən müəyyən "fayda götürmək" prinsipini güdür. "Fayda götürmək" həm də "faydalı olmağı" bacarmağı tələb edir! Burada müəyyən təbii sərvətlərə malik olmaqla yanaşı, geostrateji mövqe, dövlətin dünyada gedən proseslərdə iştirak etmək dərəcəsi, nüfuzu, habelə dövlət başçısının xarizmatik keyfiyyətləri də əhəmiyyətli rol oynayır.

Dövlət var ki, ildə bir dəfə qapısını açan olmur!

Dövlət var ki, onun başçısını tanıyıb sayan yox dərəcəsindədir!

Müstəqil Azərbaycanımız isə bəzən qonaq qəbul etməkdən, dəvət olunan tədbirlərdə iştirakdan, necə deyərlər, başını qaşımağa belə vaxt tapmır!

Hər görüşə hazırlaşmaq, maraqlı və faydalı çıxışlar etmək, hətta "görüşdən görüş almaq" - bu da xüsusi bacarıqdır.

Prezidentliyi dövründə cənab İlham Əliyevin səfər etdiyi ölkələrin və getdiyi beynəlxalq tədbirlərin təkcə adını yazsaq (hələ orada keçirdiyi müxtəlif görüşləri və söylədiyi nitqləri demirik), "Azərbaycan" qəzetinin bütöv bir nömrəsi belə bəs etməz. Yığcam olsun deyə, təkcə builki tədbirləri gözdən keçirək:

Cari ilin yeddi ayında cənab İlham Əliyev 7 beynəlxalq toplantıda iştirak edib!

Bunların sırasında Davos Ümumdünya İqtisadi Forumunu, Münxen Təhlükəsizlik Konfransını, IV Nüvə Təhlükəsizliyi Sammitini, Dünya Humanitar Sammitini, NATO-nun Varşava Sammitini xüsusi qeyd etmək istərdik.

Dövlət başçısı on ölkəyə 13 səfər etmişdir!

İsveçrə, Birləşmiş Ərəb Əmirliklərinə, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına, Almaniya Federativ Respublikasına, Türkiyə, ABŞ, Avstriya, Rusiya, İran və Polşaya səfərləri zamanı 59 görüş keçirmişdir!

İlin əvvəlindən bəri dörd möhtəşəm tədbir - "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin ikinci toplantısı, "Çoxqütblü dünyaya doğru" mövzusunda IV Qlobal Bakı Forumu, BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu, XXIII Beynəlxalq "Xəzər Neft və Qaz 2016" sərgisi keçirilmişdir.

Ən nəhayət, on dövlətin, o cümlədən Türkiyə, Rusiya, İran, Ukrayna, Bolqarıstan, Gürcüstan, Albaniya, Malta prezidentləri ölkəmizə gəlmişlər.

Bütün bunlar həm də Azərbaycanın nüfuzunun və gərəkliliyinin təsdiqidir.

Özü də təsadüfən baş vermir. Böyük zəhmət, məqsədyönlü fəaliyyət, tükənməz enerji və bir də diplomatik məharət tələb edən səylərin nəticəsindən yaranır!

Cənab İlham Əliyevin diplomatik məharətinə bir neçə aspektdən baxaq:

Birinci, dövlət başçısı ölkəmizi mümkün bəlalardan ustalıqla qoruyur, hadisələrin inkişaf istiqamətini və məntiqini inceliklə duyaraq onu qabaqlamağı və zərərsizləşdirməyi bacarır!

Azərbaycandakı sabitliyi gözü götürməyən kifayət qədər qüvvələr vardır!

Azərbaycanı qarışdırmaq üçün kifayət qədər cəhdlər göstərilmiş, hətta pullar xərclənmişdir!

Azərbaycanda da "radikal dəyişikliklər" etmək üçün kifayət qədər "rəngli inqilablar" və digər ssenarilər hazırlanmışdır.

Lakin cənab İlham Əliyevin bacarıq və qətiyyəti bütün bu düşmən niyyətləri önləmiş, xalqının birmənalı dəstəyinə güvənən dövlət başçısı bütün məkrli planları puça çıxarmışdır!

İkincisi, möhtərəm İlham Əliyev təkcə ölkədaxili sabitlik və inkişafı qoruyub saxlamaqla kifayətlənmir, eyni zamanda, bunu beynəlxalq sferaya, regional müstəviyə də keçirməyi bacarır.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı cənab İlham Əliyev öz qətiyyətli və prinsipal mövqeyini açıq şəkildə ortaya qoyub: "Azərbaycan bir qarış torpağını belə kimsəyə güzəştə getməyəcəkdir", "Azərbaycan öz ərazisində ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir!"

Ali Baş Komandan kimi verdiyi açıqlama da reallıqdan doğur: "Azərbaycan istənilən vaxt hərbi yolla öz torpaqlarını azad etməyə qadirdir!"

Bugünə qədər torpaqlarımızın işğalda qalmasının səbəbi isə BMT Təhlükəsizlik Şurasının və ATƏT-in Minsk qrupunun dişsizliyi, habelə ATƏT-in Minsk qrupu həmsədr ölkələri rəhbərlərinin Ermənistanın şıltaqlıqlarına dözməsidir. "Dörd günlük aprel müharibəsi" dövründə Azərbaycan ordusu nəyə qadir olduğunu əyani şəkildə göstərdi. Dövlət başçısı isə Rusiyanın və digər dövlət rəhbərlərinin sülh çağırışlarını dinləyərək uğurlu hərbi əməliyyatları dayandırdı, münaqişənin sülh yolu ilə həllinə sadiqliyini bir daha nümayiş etdirdi.

Gürcüstanda "avqust müharibəsi" baş verəndə, Ukrayna-Rusiya, Türkiyə-Rusiya konfliktləri başlayanda da cənab İlham Əliyev sülh mövqeyi tutdu, eyni zamanda, qarşıdurmanın məhz bu yolla nizamlanması üçün əlindən gələni etdi. Bu gün də Qafqazın sülh və əməkdaşlıq regionuna çevrilməsi yolunda çox gərgin və səmərəli fəaliyyət göstərir. Artıq onun səyləri müsbət nəticələrini verir və dünya bunu görüb qiymətləndirir!

Üçüncüsü, İlham Əliyev əməkdaşlığın bütün tərəfdaşlar üçün ən sərfəli və səmərəli formalarını tapmaqla istəklərini sürətlə gerçəkləşdirə bilir!

Cənab İlham Əliyev heç zaman danışıqlara, əməkdaşlıqla bağlı görüşlərə "əliboş" getmir. Təklif real, səmərəli və həvəsləndirici olur. Həm də qabaqcadan hər şey yüz ölçülüb, bir biçilir!

Artıq bütün dünya Azərbaycanın dövlət başçısını təkcə regional deyil, iştirakçı ölkələrin hamısına fayda gətirəcək dünya əhəmiyyətli beynəlxalq layihələrin təşəbbüsçüsü və icraçısı kimi də tanıyır.

Bakı-Tbilisi-Qars dəmir yolu ideyası ortaya atılanda bir sıra dövlətlər nəinki ona dəstək verdilər, hətta baş tutmaması üçün müəyyən çabalar da etdilər. TAP və TANAP layihələri də ilkin olaraq belə qarşılandı. Lakin cənab İlham Əliyev bütün yükü öz çiyinlərinə götürərək öz ideyasını gerçəkləşdirdi. İndi bu layihələrdən istifadə etmək istəyənlərin sayı getdikcə artır. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərini Azərbaycan demək olar ki, təkbaşına reallaşdırdı. Amma artıq hamı onun faydasını dərk etməkdədir.

Dördüncü, cənab İlham Əliyev ölkə daxilində yaratdığı sağlam siyasi-iqtisadi və işgüzar ab-havanı regiona da "köçürməyi", ilbəil onun yayım arealını genişləndirməyi də təmin edir.

Azərbaycanda sabitlik və inkişafdır. Ölkədə sahibkarlıq inkişaf etdirilir, investisiya qoyuluşu artır, yeni istehsal obyektləri tikilir, turizm və idman getdikcə vüsətlənir. Təbiidir ki, heç bir ölkə təcrid olunmuş şəkildə inkişaf edə bilməz! Yeni bazarların tapılması, yükdaşımaların həcminin və sürətlinin artırılması, ekoloji cəhətdən təmiz məhsul istehsalı hər bir dövlətin çatmaq istədiyi məqsədlərdəndir.

Bax, Azərbaycan bu hədəflərin daha tez əldə edilməsi üçün təşəbbüs və liderlik göstərir. Ağıllı dövlət başçıları isə bütün bunları düzgün dəyərləndirərək lazımınca qiymətləndirməyi bacarırlar!

AZƏRBAYCAN BRENDİ

Artıq Azərbaycan özü dünya brendinə çevrilməkdədir. Müstəqilliyinin qısa dövründə qazandığı nailiyyətlərə, demokratiyanın inkişafına verdiyi töhfələrə, idman ölkəsinə çevrildiyinə, tolerantlığa və multikultural dəyərlərə sadiqliyinə, daim sülh və əməkdaşlıq təşəbbüsləri ilə çıxış etdiyinə görə!

Bu brendin özünəməxsus cəhət və xüsusiyyətləri, əlamət və nişanələri vardır. Müstəqillik illərində ölkəmizi görünməmiş inkişaf mərhələsinə çıxaran cənab İlham Əliyev Azərbaycanın yeni imicini də formalaşdırmışdır. Əlbəttə, bu, bir o qədər də asanlıqla başa gəlməmişdir. Əvvəlcə ölkəmiz ətrafında yaradılmış informasiya blokadası aradan qaldırılmış, əsl həqiqətlər beynəlxalq ictimaiyyətə çatdırılmış, dünyaya sürətli inteqrasiya prosesi başa çatmış, Avropanın karbohidrogen ehtiyatları ilə təminində fəallıq göstərilmiş, Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilərək onun iclaslarına uğurla rəhbərlik etmiş, beynəlxalq qurum və təşkilatlarla səmərəli əməkdaşlıq qurulmuş, beynəlxalq forumlarda iştirak zamanı dünyanın təhlükəsizliyinə, sülhə və əməkdaşlığa xidmət edən mühüm təkliflər verilmiş, addımlar atılmışdır.

Bu gün müstəqil Azərbaycana kənardan baxanda hansı xarakterik cəhətləri daha qabarıq görünür:

* Demokratik inkişaf yoluna sadiq qalan, vətəndaş cəmiyyətinin, mətbuat və söz azadlığının təminin daim qayğı göstərən ölkə;

* Hər cür qarşıdurma və siyasi kataklizmlərdən uzaq, sabitlik və əmin-amanlığın təmin olunduğu yer;

* Davamlı və sürətli inkişaf yolu ilə addımlayan, sistemli şəkildə tikilib-qurulan, abadlaşdırılan diyar;

* Sülhsevən siyasət yürüdən, dövlətlər arasında qarşılıqlı hörmətə, bir-birinin daxili işlərinə qarışmamaq prinsipinə söykənən faydalı əməkdaşlıq tərəfdarı;

* Etibarlı partnyor, verdiyi sözə, imzaladığı müqaviləyə daim sadiq qalan, münasibətlərdə düzgün və səmimi olan tərəfdaş;

* Həmişə sülhə can atan, bütün mübahisəli məsələlərin dinc danışıqlar yolu ilə həllinə çalışan, birgə fəaliyyəti mübahisə və qarşıdurmadan üstün tutub faydalı sayan;

* Dünyanın hər bir ölkəsi üçün xeyir gətirəcək transmilli layihələrin təşəbbüsçüsü, maliyyəçisi və icraçısı;

* Ən kritik situasiyalarda belə barışdırıcı, birləşdirici vasitəçilik missiyasını uğurla yerinə yetirən;

* Bütövlükdə yeni dünya düzəninə nümunəsi və xidmətləri ilə faydalar verməyi bacaran müasir dövlət!

Bəxtiyar SADIQOV
"AZƏRBAYCAN"

2016-cı il üçün Qazax rayon İcra Hakimiyyəti Başçısının aparatında vətəndaşların qəbulu cədvəli

S/№-si	Qəbul edən şəxs	Tutduğu vəzifə	Qəbul günləri	Qəbul vaxtı
1.	Babaşov Rəcəb Abas oğlu	Rayon İcra Hakimiyyətinin Başçısı	Hər həftənin V günü	10^{00}-dan
2.	Nağdalıyev Fərman Məmməd oğlu	Rayon İcra Hakimiyyəti Başçısının birinci müavini	Hər həftənin I günü	10^{00}-dan
3.	Musayev Tahir Xaliddin oğlu	Rayon İcra Hakimiyyəti Başçısının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri	Hər həftənin II günü	10^{00}-dan
4.	Həsənova Gulaya Ziyad qızı	Rayon İcra Hakimiyyəti Başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri	Hər həftənin III günü	10^{00}-dan
5.	Abışov Gündüz Fəxrəddin oğlu Alıyev Məmməd Oruc oğlu Həsənov Mehdi Alı oğlu	Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Memarlıq və tikinti şöbəsinin müdiri	Hər həftənin IV günü	10^{00}-dan

Qeyd: 1. Milli qəhrəmanlar və onların ailələri, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri digər imtiyazlı vətəndaşlar müraciət etdikdə dərhal qəbul edilirlər.

2. Rayon İcra Hakimiyyəti başçısının qəbul günləri bayram günlərinə düşdükdə qəbul növbəti iş gününə keçirilir.

3. Vətəndaşların qəbulu ilə bağlı əlaqə telefonları :
022) 295-31-55; (022) 295-23-35; qaynar xətt (022)295-56-70

SƏRƏNCAM İMZALANMIŞDIR

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov Qazax şəhərində Mərkəzi bazarın ətrafındakı Heydər Əliyev prospekti, Azadlıq, M.Carçıyev və M.V.Vidadi küçələrində vətəndaşların etdikləri müraciətlər əsasında müəyyən edilməmiş yerdə qanunsuz tikililərin sökülməsi, küçə ticarətinin qarşısının alınması və səliqə-sahman yaradılması məqsədilə işçi qrupunun yaradılması haqqında Sərəncam imzalamışdır.

9-21/77 nömrəli, 8 avqust 2016-cı il tarixli sərəncama əsasən idarə, müəssisə, təşkilat rəhbərlərindən, icra aparatının məsul işçilərindən ibarət işçi qrupu yaradılmışdır.

Rayon İcra Hakimiyyəti Başçısının birinci müavini Fərman Nağdalıyev işçi qrupunun rəhbəri təyin edilmişdir.

Sərəncama əsasən işçi qrupuna aşağıdakı tapşırıqlar verilmişdir:

2. Bazarətrafı ərazidə antisanitariya vəziyyətində qanunsuz fəaliyyət göstərən küçə ticarətinin qarşısının alınması məqsədilə təsirli tədbirlərin görülməsi komissiyaya tapşırılsın.

3. Qazax şəhərində Mərkəzi bazarın ətrafındakı Heydər Əliyev prospektində, Azadlıq, M.Carçıyev və M.V.Vidadi küçələrində avtomobil tıxaclarının qarşısının alınması, bazara gələn avtomobil və avtobuslar üçün bazarətrafı küçələrdə xüsusi dayanacaqlar müəyyənləşdirilməsi və qanunsuz tikililərin sökülməsi rayon Polis Şöbəsinə, rayon İcra Hakimiyyəti Başçısının Qazax şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyinə, Qazax "Avtovağzal" ASC-yə və Qazax bələdiyyəsinə tapşırılsın.

4. Mərkəzi bazar daxilində qaz və elektrik xətlərinin yoxlanılıb qaydaya salınması, yanğın baş verən hallarda yanğınsöndürən maşınların sərbəst bazara daxil olması üçün müvafiq tədbirlərin görülməsi "Nazim" MMC-yə, rayon Qaz İstismar İdarəsinə, Paylayıcı Elektrik Şəbəkəsinə, Qazax şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyinə, Qazax bələdiyyəsinə və Qazax rayon Dövlət Yanğın Nəzarəti Şöbəsinə tapşırılsın.

5. Bazarın daxilində və bazarətrafı ərazidə səliqə-səhman yaradılması, yığılmış tullantıların vaxtında götürülməsinin təmin edilməsi "Nazim" MMC-yə, Qazax bələdiyyəsinə, rayon İcra Hakimiyyəti başçısının Qazax şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəliyinə və Qazax Kommunal Müəssisələri Kombinatına tapşırılsın.

6. Bazarda satılan ərzaq məhsullarının, xüsusilə ət və süd məhsullarının müvafiq baytarlıq nəzarətindən və sanitar-gigiyenik yoxlamadan keçirilməsi rayon Gigiyena və Epidemiologiya Mərkəzinə və rayon Baytarlıq İdarəsinə tapşırılsın.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov sərəncamın icrasına nəzarəti öz üzərinə götürmüşdür.

QÜVVƏT ELMDƏDİR...

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov qəbul imtahanlarında yüksək bal toplamış məzunlarla görüş keçirmişdir

Rayonumuzda qəbul imtahanlarında yüksək bal toplayaraq müxtəlif ali məktəblərə qəbul olan məzunlarla görüş keçirilmişdir. Gənclər Mərkəzində keçirilən görüşdə məktəb direktorları, müəllimlər, valideynlər, məzunlar, idarə, müəssisə və təşkilat rəhbərləri, KİV nümayəndələri iştirak etmişdir.

Tədbirdə ilk öncə ulu öndər Heydər Əliyevin əziz xatirəsi anılmış və abidəsi önünə gül-çiçək dəstələri qoyulmuşdur.

Sonra aprel döyüşləri zamanı Vətənimizin ərazi bütövlüyünün qorunmasında canından keçmiş şəhid Orxan Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, şəhidin doğum günündə onun ruhu anılmışdır.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbiri giriş sözü ilə açaraq tələbə adını qazanan bütün məzunları, onların müəllimlərini, valideynlərini salamlamış, qazandıqları bu yüksək nailiyyətlərə görə təbrik etmişdir. Qeyd etmişdir ki, bu gün mənim üçün ən gözəl və ən xoşbəxt günlərdən biridir. Bugünki tədbirin məqsədi çox alidir. Azərbaycan qədim elmi-mədəni ənənəsi olan bir ölkədir. Hələ 850 il bundan əvvəl qədim Şeyx Nizami elmə böyük dəyər verərək belə buyurmuşdur: "Qüvvət elmdədir, başqa cür heç kəs, heç kəsə üstünlük eyləyə bilməz".

R.Babaşov öz çıxışına Heydər Əliyevin sözləri ilə başlayaraq bildirmişdir ki, təhsil millətin gələcəyidir. Bu ifadəsini şuar səviyyəsinə yüksəldən ulu öndər respublikanın gələcək inkişafının məhz təhsillə bağlı olduğunu vurğulamış və rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycanda təhsilin inkişafına xüsusi qayğı ilə yanaşmışdır. İstər Azərbaycan Respublikasına rəhbərlik etdiyi 70-80-ci illərdə, istərsə də müstəqil Azərbaycana rəhbərlik etdiyi illərdə təhsil prioritet sahə olaraq diqqət mərkəzində olmuşdur.

Heydər Əliyev siyasətinin layiqli davamçısı möhətərm Prezidentimiz İlham Əliyev cənabları da ölkədə təhsil siyasətini uğurla davam etdirərək "Neft kapitalını insan kapitalına çevirək" devizi altında təhsilin inkişafına böyük önəm verməkdədir.

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın qəbul olunması və proqram çərçivəsində gənclərin inkişaf etmiş ölkələrin nüfuzlu universitetlərində təhsil almaları üçün vəsaitin ayrılması məhz Azərbaycanın gələcək inkişafına qoyulan investisiyadır.

2015-2016-cı tədris ili üzrə 373 nəfər tələbə, 176 nəfər magistr, 25 nəfər doktorant, 70 nəfər rezident, 102 nəfəri isə baza ali tibb və bakalavriat təhsil səviyyələrində təhsil almaq hüququ qazanmışlar.

Respublikanın hər yerində olduğu kimi "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsi çərçivəsində rayonumuzda da təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi ötən dövr ərzində diqqət mərkəzində olmuş, rayonun ümumtəhsil məktəblərinin böyük əksəriyyəti yeni, daha müasir binalarda fəaliyyət göstərməkdədir. Respublikanın birinci xanımı, millət vəkili Mehriban xanım Əliyevanın təşəbbüsü ilə rayonumuzda iki məktəbəqədər təhsil müəssisəsi və 4 məktəb binası tikilib istifadəyə verilmişdir. Hazırda Yuxarı Salahlı kənd tam orta məktəbində bərpa gücləndirmə işləri yekunlaşmaq üzrədir.

Təhsilə göstərilən qayğının nəticəsidir ki, rayonumuzda məzunların ali məktəblərə qəbul faizi də ilbəil artmaqdadır. 2015-2016-cı tədris ilində 849 nəfər attestat almışdır ki, onlardan 456 nəfər ali məktəblərə sənəd vermiş və sevindirici haldır ki, 319 məzun birinci turda yüksək nəticə əldə etmişdir. Bu isə sənəd verənlərin 70 faizinin yüksək nəticə əldə etməsi deməkdir.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının qəbul imtahanlarında respublikada 4 ixtisas qrupu üzrə 10 nəfər 700 bal toplamış abituriyent olmuşdur ki, bunlardan da biri Canalı kənd tam orta məktəbin məzunu İsmayılova Səbinə Emil qızı IV qrup üzrə ən yüksək - 700 bal nəticə göstərərək rayonumuzun adını yüksəkliklərə qaldırmışdır.

Rəcəb Babaşov Səbinəni səmimi qəlbdən təbrik edərək valideynlərinə gözaydınlığı vermişdir. Onun bu səviyyədə yetişməsində əməyi olan müəllimlərə isə təşəkkürünü bildirmişdir.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov təhsil sahəsində qazanılmış başqa uğurlardan söz açaraq qeyd etmişdir ki, rayonumuzun iki məzunu təhsil dövründə ən yüksək nəticələrə nail olmuş, Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən qızıl medala layiq görülmüşdür. Mirzəyev İlham Rövşən oğlu 690 bal və Məmmədova Leyla Şirzad qızı 682 bal toplayaraq onlara göstərilən etimadı yüksək səviyyədə doğrultmuşlar.

Bugünki tədbirimizdə rayonumuz üzrə 58 nəfər 500-700 bal intervalında nəticə göstərən məzunlarımız toplaşmışlar. Onları bir yerə toplamaq, onlarla söhbət aparmaq, bundan sonra da harada təhsil almalarından asılı olmayaraq yüksək təhsil almalarını tövsiyə etmək, onlara uğurlar diləmək biz ziyalıların borcudur.

Əziz balalar! Biz sizinlə fəxr edirik. İnanıram ki, siz təhsil alacağınız ali məktəbdə rayonumuzun adını həmişə yüksəklərə qaldıracaqsınız.

Bu gün dövlətimizin siyasətinin əsas strateji xəttini təhsilin inkişafı təşkil edir. Mənə elə gəlir ki, bu işdə hər birimizin fəallığı hiss olunmalıdır. Dünyada baş verən qlobal böhranlar, iqtisadi problemlər Azərbaycana bir o qədər də təsir göstərməmişdir. Bunun səbəbi ölkəmizdə qabiliyyətli kadr potensialının yetişməsi, təhsilin inkişafıdır. Dəfələrlə möhtərəm Prezidentimiz öz çıxışlarında "Biz neft kapitalını insan kapitalına çevirməliyik" söyləmişdir. Bu kapital sizsiniz, xalqımız öz gələcəyini sizin kimi savadlı, qabiliyyətli, bacarıqlı gənclərə etibar edəcək. Əziz balalar! Siz tək öz ailənizi yox, öz kəndinizi yox, ümumilikdə Qazax rayonunu sevindirdiniz. Qazax ziyalılarının başını uca etdiniz. Bu yolda sizə uğurlar, can sağlığı arzulayıram.

Rayon İcra Hakimiyyəti Başçısının müavini Gulaya Həsənova tədbirdə məruzə ilə çıxış edərək təhsil sahəsinə göstərilən dövlət qayğısından, bu sahədə əldə olunan nailiyyətlərdən danışmışdır.

Sonra təhsil şöbəsinin müdiri Nizaməddin Babanlı, Canalı kənd tam orta məktəbin direktoru İlduzə Yusifova çıxış edərək bütün məzunları tələbə adı qazanmaları münasibətilə təbrik etmiş, gələcək işlərində uğur arzulamışlar.

Ali məktəbə qəbul olan məzunlar adından 700 bal toplamış Canalı kənd tam orta məktəbin məzunu Səbinə İsmayılova, Təhsil Naziri tərəfindən qızıl medala layiq görülmüş şəhər 2 saylı tam orta məktəbin məzunu İlham Mirzəyev və məktəb-liseyin məzunu Leyla Məmmədova çıxış edərək bütün məzunları təbrik etmiş, onlara qədəm qoyduqları tələbəlik həyatında yeni-yeni uğurlar arzulamışlar. Qeyd etmişlər ki, bu gün çox sevindirici haldır ki, bizim kimi gənclər yüksək nəticələr əldə etmişdir. Bu yalnız bizim uğurumuz deyil, həm də valideynlərimizin, müəllimlərimizin, bütövlükdə Qazax rayon təhsil şöbəsinin uğurudur. Təhsilə, xüsusilə də biz gənclərə göstərdikləri diqqət və qayğıya görə Ölkə Prezidenti İlham Əliyevə, rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova öz dərin minnətdarlığımızı bildiririk. Qeyd etmişlər ki, xüsusilə bu il Rəcəb Babaşovun rayonumuza İcra Başçısı təyin olunması bizim üçün çox düşərli oldu. Ən yüksək 700 balı topladıq və qızıl medalları rayonumuz üçün əldə etdik. Bizə göstərilən bu diqqət, qayğı biz gəncləri çox həvəsləndirir. Elm və digər sahələrə olan marağımızı daha da artırır. Bu qayğı sayəsində uğurlarımızın sayı artır. Əmin olun ki, biz gənclərin burada qazandıqları uğurlar oxuduğumuz universitetlərdə də davam edəcəkdir. Qazaxımızın adını daim yüksəklərə qaldıracağıq.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov tədbirə yekun vuraraq məzunları tələbə adı qazanmaları münasibətilə bir daha səmimi qəlbdən təbrik etmiş, valideynlərinə, müəllimlərinə gözaydınlığı vermişdir.

Sonda qəbul imtahanlarında yüksək bal toplamış bütün məzunlara gül-çiçək dəstələri və qiymətli hədiyyələr təqdim edilmişdir.

Nüşabə HÜSEYNOVA

Rayonumuzda kənd təsərrüfatı işlərinin gedişi, bu sahənin inkişafı ilə əlaqədar mövcud vəziyyətin öyrənilməsi məqsədilə kənd təsərrüfatı işçilərinin müşavirəsi keçirilmişdir. Gənclər Mərkəzində keçirilən müşavirədə İcra Aparatının müvafiq strukturları, sahibkarlar, bələdiyyə və icra nümayəndələri, ictimaiyyət və KİV nümayəndələri iştirak etmişdir.

Rayonumuzda kənd təsərrüfatı məhsullarının artırılmasına tam nail olacağıq

Kənd təsərrüfatı işçilərinin müşavirəsində bu fikir səslənmişdir

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov müşavirəni giriş sözü ilə açaraq rayonumuzda kənd təsərrüfatının mövcud durumundan, bu sahədə əldə edilən nailiyyət və problemlərdən söz açmışdır. Qeyd etmişdir ki, qarşıda duran əsas məqsəd rayonumuzda yeni kənd təsərrüfatı müəssisələri yaratmaq, onların istehsal gücündən səmərəli istifadə etmək, rəqabət qabiliyyətli kənd təsərrüfatı məhsulları istehsalını genişləndirmək və məhsuldarlığı artırmaqdır. Bildirmişdir ki, biz kənd təsərrüfatı məhsulları istehsalının artırılmasına nail ola bilmişik. Lakin mövcud vəziyyətdən tam istifadə edə bilməmişik. Əgər real imkanlardan düzgün və aqrotexniki qaydada istifadə olunarsa, o zaman rayonumuzda məhsul istehsalı bir-beş artar. Qazax kənd təsərrüfatı rayonu kimi öz keçmiş şöhrətini geri qaytara bilər. Bu vəzifələrin həyata keçirilməsi üçün mövcud çatışmazlıqlar və problemlər aradan qaldırılmalı, bu istiqamətdə əməli addımlar atılmalıdır. Belə olan halda kəndli torpaqdan daha bərk yapışar, bazara daha keyfiyyətli məhsullar çıxarılar və son nəticədə kənd təsərrüfatından əldə edilən gəlir əhəmiyyətli dərəcədə artar. Bütün bunlara nail olmaq üçün biz fəaliyyətimizi daha da artırmalı, mövcud çatışmazlıqları aradan qaldırmalıyıq. Bildirmişdir ki, artıq kəndlinin torpağa inamı qayıdıb. Daha torpağını satan, onu icarəyə verən demək olar ki, yoxdur.

Sonra çıxışlar olmuşdur. Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Məmməd Alıyev, sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdir müavini Aqil Qurbanov, kənd təsərrüfatı idarəsinin rəisi Həmid Pənahov, Dəmirçilər kənd icra nümayəndəsi Gülnaz Mahmudova, Aşağı Salahlı kənd icra nümayəndəsi Yaşar Əfəndiyev, sahibkar Sirac Nuriyev, ağsaqqallardan Murad Süleymanov, Seyfəddin Vəliyev çıxış edərək kənd təsərrüfatı məhsulları istehsalının artırılması yollarından, buna nail olmaq üçün görüləcək işlərdən danışmışlar. Çıxışlarda kənd təsərrüfatı sahəsindəki bir sıra çatışmazlıqlardan da söz açılmışdır. Qeyd olunmuşdur ki, kənd təsərrüfatı sahəsində istifadə olunan dərmanların tərkibi olduqca aşağı səviyyədədir. Bu da həmin dərmanlardan istifadə olunan zaman istənilən nəticəni vermir. Ona görə də yaxşı olardı ki, rayonumuzda satışda olan kənd təsərrüfatı dərmanlarının tərkibləri yoxlanılsın. Tələbata cavab verməyənlər satışdan çıxarılsın. Bununla yanaşı kənd təsərrüfatı bitkilərinə dərman vuran çiləyicilərin də normal vəziyyətdə olmadığı qeyd olunmuşdur. Bildirilmişdir ki, qeyd olunan bu və ya digər səbəblər kənd təsərrüfatı sahəsində yüksək məhsuldarlığın əldə olunmasına maneçilik törədir və son nəticədə kəndlinin əməyi zay olur.

Sonra müşavirə diskussiya şəraitində davam etdirilmişdir. Sahibkarların, fermerlərin və rayon sakinlərinin sualları və təklifləri cavablandırılmışdır.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov müşavirəyə yekun vuraraq qeyd etmişdir ki, rayonumuzda kənd təsərrüfatı sahəsini inkişaf etdirmək və məhsul bolluğu yaratamaq qarşımızda duran ən mühüm vəzifələrdən biridir. Bu vəzifənin həyata keçirilməsi işsizliyin aradan qaldırılması, əhalinin maddi rifah halının yaxşılaşdırılması deməkdir. Artıq qısa zaman kəsiyində bu sahədə çatışmazlıqların əsas hissəsi demək olar ki, aradan qaldırılmışdır. Bu il kənd təsərrüfatının bütün sahələri suvarma suyu ilə tam təmin olunmuşdur. Texnika sahəsindəki çətinliklər də tədricən aradan qaldırılır, rayonumuza yeni kənd təsərrüfatı maşınları gətirilir. Mövcud vəziyyət göstərir ki, biz qarşıda duran vəzifələri qısa müddətdə həyata keçirəcək və rayonumuzda kənd təsərrüfatı məhsullarının artırılmasına tam nail olacağıq.

Elçin İSMAYIL

TQDK-nın ali məktəblərə qəbul imtahanlarında Qazax rayonu üzrə 2015-2016-cı tədris ilində 500-700 bal toplayan məzunların SİYAHISI

S/N	Soyadı, adı, atasının adı	Bitirdiyi məktəb	İxtisas qrupu	Topladığı bal
1.	İsmayılova Səbinə Emil	Canalı kənd tam o\m	IV	700
2.	Mirzəyev İlham Rövşən	Qazax şəhər 2 saylı tam o/m	I	690
3.	Məmmədova Leyla Şirzad	Məktəb-lisey	III	682
4.	Əhmədzadə Nərmin Şəhadət	Qazax şəhər 4 saylı tam o/m	II	678
5.	Həsənov Əfəndi Mustafa	Xanlıqlar kənd tam o/m	II	670
6.	Şükürova Nigar Şirzad	Ağköynək kənd tam o/m	IV	665
7.	Babayev İbrahim Yasin	Çaylı kənd 2 saylı tam o/m	I	662
8.	İmamquluyev Fidan Adil	Qazax şəhər 1 saylı tam o/m	III	651
9.	Süleymanova Ayşən Namiq	II Şıxlı kənd tam o/m	III	644
10.	Eyyubova Bahar Elçin	Daş Salahlı 2 saylı tam o/m	III	632
11.	Nəbiyeva Qərənfil Ramiz	Qazax şəhər 2 saylı tam o/m	IV	621
12.	Osmanova Rəna İbrahim	Daş Salahlı 2 saylı tam o/m	III	620
13.	Osmanova Xatın Asim	Daş Salahlı 2 saylı tam o/m	III	620
14.	Musayev İsmayıl İbrahim	Qazax şəhər 2 saylı tam o/m	III	614
15.	Əliyeva Ləman Pənah	Daş Salahlı 2 saylı tam o/m	III	610
16.	Süleymanova Ayşən Şamil	Daş Salahlı 2 saylı tam o/m	III	608
17.	Nəsibova Aliyə Nazim	Daş Salahlı 1 saylı tam o/m	III	608
18.	Məmmədova Gülçiçək Şahvələd	Qazax şəhər 1 saylı tam o/m	IV	603
19.	Namazova Səltənət Elşən	Məktəb-lisey	IV	600
20.	Hacıyeva Yetər Rafiq	Daş Salahlı 1 saylı tam o/m	III	599
21.	Paşayev Ceyhun İsrayıl	Xanbağı kənd tam o/m	II	589
22.	Əliyeva Nəzrin Ceyhun	Qazax şəhər 2 saylı tam o/m	IV	581
23.	Omarova Kəmalə Cahid	Xanlıqlar kənd tam o/m	III	580
24.	Musayeva Aytac Mahir	Qazax şəhər 1 saylı tam o/m	IV	575
25.	Orucov Sərxan Hümbət	Qazax şəhər 2 saylı tam o/m	I	574
26.	Xəlilova Nigar Əhməd	Qazax şəhər 1 saylı tam o/m	I	573
27.	Məmmədova Kəmalə Elxan	I Şıxlı kənd tam o/m	III	570
28.	Mustafayeva Nəzrin Cavanşir	Ağköynək kənd tam o/m	III	569
29.	Xəlifova Elmira Rasim	Qazax şəhər 2 saylı tam o/m	I	565
30.	Mirzəyev Cavad Malik	Xanbağı kənd tam o/m	II	565
31.	Qocayeva Əminə Rafiq	Aslanbəyli kənd tam o/m	III	559
32.	İmamquluyev Cabbar Ziyaddın	Daş Salahlı 1 saylı tam o/m	II	559
33.	İbrahimli Pəri Nəsib	Daş Salahlı 2 saylı tam o/m	III	553
34.	Orucova Jalə Fuad	Qazax şəhər 1 saylı tam o/m	III	551
35.	Şükürova Elxan Şirzad	Ağköynək kənd tam o/m	II	550
36.	Əliyeva Günay Nadir	Qazax şəhər 2 saylı tam o/m	III	545
37.	Abdıyeva Fəridə Oktay	Qazax şəhər 3 saylı tam o/m	III	545
38.	Nuruyeva Həmayıl Əziz	Qazax şəhər 5 saylı tam o/m	III	544
39.	Məmmədova Venera Akif	Aslanbəyli kənd tam o/m	I	544
40.	Hüseynova Gülçin Nüreddin	Qazax şəhər 5 saylı tam o/m	III	540
41.	Miralayeva Ləman Nadir	Xanlıqlar kənd tam o/m	III	536
42.	İbrahimova Nərgiz Pərviz	I Şıxlı kənd tam o/m	III	535
43.	Nuruyeva Bəsdi Salman	Çaylı kənd 2 saylı tam o/m	II	532
44.	Faxnavar Fərid Pərviz	Qazax şəhər 2 saylı tam o/m	I	531
45.	Nəbizadə Orxan Şəadət	Daş Salahlı 1 saylı tam o/m	III	530
46.	Orucov Kamran Səməd	Xanbağı kənd tam o/m	I	527
47.	Göyüşov İmran Rza	Daş Salahlı 1 saylı tam o/m	III	520
48.	Mustafayeva Günel Bəhmən	Alpoud kənd tam o/m	I	518
49.	Babayeva Şəhla İsa	Qazax şəhər 4 saylı tam o/m	III	516
50.	Musayev Nihal Valeh	Qazax şəhər 1 saylı tam o/m	I	513
51.	Nağıyeva Səma Rafiq	Xanlıqlar kənd tam o/m	III	513
52.	Əliyeva Səbinə Məzahir	Daş Salahlı 2 saylı tam o/m	III	512
53.	Musazadə İslam Bayram	Çaylı kənd 1 saylı tam o/m	II	510
54.	Bayramova Reyhan Ayyət	Daş Salahlı 1 saylı tam o/m	III	510
55.	Nəbizadə Rəna Şəadət	Daş Salahlı 1 saylı tam o/m	III	506
56.	Mehdiyev Sənan Bayram	Daş Salahlı 1 saylı tam o/m	III	505
57.	Bayramov Taleh Qurban	Daş Salahlı 1 saylı tam o/m	III	504
58.	İsayev Asim Vüqar	Qazax şəhər 1 saylı tam o/m	III	501

100 ilin problemi...

5 gündə həll olundu

Hər bir problemə hərtərəfli yanaşanda, onun həllinə sözün əsl mənasında can yandıranda mövcud çatışmazlıq tez bir zamanda aradan qaldırılır, illərlə uzanan problem qısa müddətdə həllini tapır.

Rayonumuzda isə belə problem və çatışmamazlıqlar yetərincədir. Uzun illər onlara ciddi fikir verilməmiş, həllinə səy göstərilməmiş və son nəticədə bu məsələ də başqaları kimi "düzəlməz". "həll olunmaz" bir problemə çevrilmişdir. Bu da öz növbəsində insanlarda, yerli sakinlərdə bir inamsızlıq yaratmışdır. İstər kəndlərimizdə, istərsə də rayon mərkəzində belə "müşkülə" düşən problemlər uzun illər ildən-ilə keçmiş, insanların göz dağına çevrilmişdir.

Mən onlardan yalnız biri haqqında yazıram. Qazaxbəyli kəndindəki su problemi barədə. Bu kəndlərin ən yaşlı sakinləri hətta yaşadıqları ərazilərdə içməli su olduğunu xatırlamırlar belə. Hardan da xatırlasınlar. Gərək içməli su ola ki, onu da yada salasan. Çox təəssüflər olsun ki, son günlərə qədər bu kəndlərdə real vəziyyət belə idi.

Axır ki, bu biganəlik buzu uzun illərdən sonra əriməyə başladı və əridikcə də rayonumuzdakı problemlər bir-bir tarixin yaddaşına köçdü. Qazaxbəyli kəndindəki su problemi kimi.

Bu kənddə camaatın problemi bəlli idi. Zaman artıq bu problemi bir dərdə çevirmişdi. Camaat daha onun həyata keçəcəyinə inanmırdı da. Amma... bəli, amma bu problem öz həllini tapdı. Özü də qısa bir müddətdə. Görünür Qazaxbəyli kəndinə su çəkmək üçün ilk növbədə onu özününkü kimi qəbul etmək və ürəkdən can yandırmaq lazım imiş. Belə olan halda düzəlməyən heç bir iş qalmır. Necə ki, qalmadı da.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov rayonumuzda fəaliyyətə başladığı ilk gündən insanlara inamı qaytardı, hamının ürəyində bir inam günəşi yandırdı. Digər tərəfdən isə rayonda olan bütün problemlərə reallıqla yanaşaraq onların həllinə çalışır və bütün hallarda buna nail olur. Bu da cənab başçının çatışmamazlıqların həllinə bütün varlığı ilə və ürəkdən yanaşmasından irəli gəlir.

Qazaxbəyli kəndinə içməli su çəkilməsi məsələsinə də Rəcəb Babaşov bu istiqamətdən yanaşdı. İllərdən bəri uzanan bu problemin həlli yollarını tapdı və bu istiqamətdə aidiyyatı təşkilatlara tapşırıqlar verdi. Bəli, 1 gün, 2 gün, 3 gün, 4 gün, 5 gün keçdi və nə oldu? Qazaxbəyli kəndinə içməli su çəkildi. 100 ilin problemi... 5 gündə həll olundu.

Qazaxbəyliyə çəkilmiş həmin suyun yaxın vaxtlarda Orta Salahlı kəndinə çəkilməsi nəzərdə tutulmuşdur. Deməli, daha 1 kəndin də su problemi yaxın günlərdə aradan qaldırılacaqdır. Bəli, bir xeyirxah iş başqa bir çatışmazlığın aradan qaldırılmasına kömək edəcəkdir. Bununla da Orta Salahlı kənd camaatının da içməli suya olan ehtiyacları ödənəcəkdir.

Bu xeyirxah işə görə bütün kənd sakinləri rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova öz dərin minnətdarlıqlarını bildirirlər.

Elçin İSMAYIL

ŞƏHİD ORXAN ƏLİYEVİN AD GÜNÜ QEYD OLUNMUŞDUR

Bu ilin aprel ayında düşmənə qarşı döyüşlərdə Qazax rayonu 3 şəhid vermişdir. Onlardan birinin - Orxan Əliyevin avqustun 11-də ad günü qeyd olunmuşdur.

Bununla əlaqədar Orxanın uyuduğu Aslanbəyli kənd qəbiristanlığında, şəhidin məzarı önündə tədbir keçirilmişdir. Tədbirdə şəhidin doğmaları, döyüş yoldaşları, idarə, müəssisə və təşkilat rəhbərləri, kənd sakinləri, KİV nümayəndələri iştirak etmişdir.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov çıxış edərək Orxanın

keçdiyi döyüş yolundan, şəhidlərin ölməzliyindən, aprel döyüşlərində Azərbaycan Silahlı Qüvvələrinin düşmənə sarsıdıcı zərbələr endirməsindən, qoşunlarımızın qazandığı qələbədən söz açmışdır. Qeyd etmişdir ki, Orxanın, eləcə də şəhidlik zirvəsinə yüksəlmiş bütün şəhidlərimizin xatirələri əbədi olaraq yaddaşlarda qalacaqdır. Onların xatirəsi həmişə əziz tutulacaq, ailə üzvləri daim dövlətin və insanlarımızın diqqətində olacaqdır.

Sonra ağsaqqal Xanqulu Süleymanov, AYB Qazax zona filialının sədri Barat Vüsal, "Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri" İctimai Birliyinin Qazax rayon şöbəsinin sədri Xasay Balayev, Silahlı qüvvələrin ehtiyatda olan zabitlər Konfederasiyasının Qazax rayon şöbəsinin sədri Baxış Hüseynov, hərbiçilər və başqaları çıxış edərək bildirmişlər ki, illər ötsə də, nəsillər dəyişsə də şəhidlər heç vaxt unudulmayacaqdır.

Sonra şəhidin ruhuna dualar oxunmuş, ehsan süfrəsi açılmışdır.

Elçin İSMAYIL

Şəhidlik müqəddəslik və ucalıqdır. Bu ucalıq isə hər adama nəsib olmur. Şəhidlik zirvəsinə ucaldır insanı Vətən sevgisi. Bu sevgi isə şəhidlərimizə münasibətdən, şəhid məzarlarından, şəhid ruhundan başlayır.

QAZAX ŞƏHƏRİNDƏ APREL DÖYÜŞLƏRİNDƏKİ ŞƏHİDLƏRİMİZİN XATİRƏSİNƏ BULAQLAR TİKİLİR

Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda yüzlərlə oğullarımız şəhid oldular. Dövlətimiz tərəfindən şəhidlərimizin adı hər zaman uca tutulub, əbədiləşdirilib. Şəhidlərin adına salınmış bulaqlar və yaxud da qoyulmuş büst və xatirə lövhələri bunun bariz nümunəsidir.

Bu gün düşmənlə 168 km məsafədə yerləşən Qazax rayonu da torpaqlarının ərazi bütövlüyünün qorunmasında xeyli şəhid vermişdir. Yüzlərlə Qazax igidi öz canından keçərək Vətənini qanı bahasına qorumuşdur. Vətən sevgisi, doğma el-obasına olan sonsuz məhəbbət hissi onları ən yüksək zirvəyə - Şəhidlik zirvəsinə ucaltmışdır. Bu zirvəni fəth edənlərin adlarını əbədiləşdirmək, onları ehtiramla xatırlayıb yad etmək isə hər birimizin vətəndaşlıq borcudur.

Rayonumuzda hər zaman şəhidlərimizə, onların ruhuna hörmət hissi ilə yanaşılmışdır. Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov rəhbər təyin olunduğu ilk gündən şəhid ailələrinə diqqət və qayğı göstərir. Onun göstərişinə əsasən şəhidlərin uyuduğu qəbiristanlıqda abadlıq işlərinin yüksək səviyyədə aparılması göstərilən bu diqqət və qayğının əyani sübutudur.

Bu gün isə aprel ayında qoşunların təmas xəttində erməni işğalçıları ilə döyüşlərdə qəhrəmancasına şəhid olan Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları - kapitan Orucov Mühüd Qurban oğlu, baş leytenant Namazov Elvin Məmməd oğlu və Əliyev Orxan Məhəmməd oğlunun xatirəsini yad etmək, onların adını əbədiləşdirmək üçün bulaqların tikintisinə başlanılmışdır. Şəhərin Heydər Əliyev prospektində tikilən bu bulaqlar həm şəhidlərimizin ruhunu şad edəcək, həm də şəhidlərimizə olan diqqətin təzahürü olacaqdır.

Bulaqlar şəhərin mərkəzində, ulu öndər Heydər Əliyevin adını daşıyan prospektdə tikilir. İnşa edilən bu bulaqlar öz gözəlliyi ilə diqqəti cəlb edir. Müasir ornamentli divarlara vurulan incə naxışlar sanki şəhidlərin ruhunu oxşayır. Bulağın yanından keçən hər bir vətəndaş içməli sudan istifadə edərkən şəhidlərimizin ruhunu yad edəcəkdir. Şəhidlərin xatirəsinə inşa olunan bu bulaqlar şəhər sakinlərinin də ürəyincədir. Şəhid ailələri rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova bu növbəti xeyirxah işinə görə öz dərin minnətdarlıqlarını bildirirlər.

Nüşabə HÜSEYNOVA

RAYONUMUZDA KƏND TƏSƏRRÜFATI İLDƏN-İLƏ İNKİŞAF EDİR

Respublikamızda qeyri-neft sektorunun inkişaf etdirilməsi və ərzaq təhlükəsizliyinin yaradılması ilə bağlı Prezident İlham Əliyevin həyata keçirdiyi aqrar islahatlar, bu sahəyə dövlət dəstəyinin gücləndirilməsi kənd təsərrüfatında ciddi inkişaf dinamikasına, mühüm kəmiyyət və keyfiyyət dəyişikliklərinə, eləcə də bu sahəyə inamın artırılmasına və fəallığın yüksəlməsinə səbəb olmuşdur.

Bu il rayonumuzda hər sahədə olduğu kimi kənd təsərrüfatı sahəsində də dönüş yaranmışdır. Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov bütün sahələrə olduğu kimi kənd təsərrüfatına da xüsusi diqqət göstərərək bu sahənin dirçəldilməsi, inkişaf etdirilməsi üçün tapşırıqlar vermişdir. Son zamanlar rayonumuzda kənd təsərrüfatı məhsulları istehsalının daha da artırılması məqsədilə yeni istehsal sahələrinin yaradılması, məhsul bolluğuna nail olunması üçün müasir texnologiyaların tətbiq edilməsi, məhsulun maya dəyərinin aşağı salınması üçün "Aqrolizinq" ASC-nin Qazax bölgəsinə yeni texnikalar gətirilməsi istiqamətində xeyli işlər görülmüşdür.

Bütün bunların nəticəsində rayonumuzda 2015-ci ildə 13485 hektar sahədə kənd təsərrüfatı məhsulları istehsal edildiyi halda 2016-cı ildə 14895 hektar sahədə kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur. Bu da ötən ildən 1410 hektar çoxdur.

Rayonmuzda əkinçiliyin əsasını dənli və dənli paxlalı bitkilər təşkil edir. 2016-cı ildə bu növ bitkilər 7926,5 hektar olmaqla ötən ildən 1886,5 hektar çox olmuşdur.

Kənd təsərrüfatının əsas sahələrindən biri taxılçılıq sahəsidir. Rayonumuzda bu il taxıl istehsalı ötən ilə nisbətən daha çox olmuşdur. Ötən il dənli və dənli paxlalılar cəmi 18217 ton, orta məhsuldarlıq 30,2 sentner olmuşdur. Bu il isə 23710 ton arpa, buğda istehsal edilmişdir ki, bu da ötən ildən 5493 ton çoxdur. Orta məhsuldarlıq 30,4 sentner, buğdanın məhsuldarlığı 33,9 sentnerdir. 106 hektar yazlıq dənlilərin məhsulunun yığımı başa çatmaq üzrədir. Taxıl məhsulunun vaxtında və itkisiz yığılması üçün 40 ədəd kombayn biçinə cəlb edilmişdir. Artıq 7799 hektar sahədə taxıl biçini yekunlaşmışdır.

Rayonumuzda yüksək məhsuldarlıqlı taxıl toxumu istehsal etmək və əhaliyə çatdırmaq üçün iki toxumçuluq təsərrüfatları 123 hektar sahədə "Azəri" və "Əkinçi" sortları əkilmiş və hər hektardan orta hesabla 50 sentner məhsul götürülmüşdür.

Hal-hazırda cari ilin payızlıq əkinləri üçün şum qaldırılmasına və digər torpaq becərmə işlərinə hazırlıq görülmüşdür. Rayonda payızlıq əkin və səpin aparılması üçün 110 ədəd traktor, 64 ədəd kotan, 44 ədəd toxum səpən, 50 ədəd mala, 6 ədəd gübrə səpən mövcuddur. Bu il 8558 hektar sahədə payızlıq əkin proqnozlaşdırılmışdır ki, onun da 753,5 hektarında yay şumu aparılmışdır. Ağköynək, Xanlıqlar, Cəfərli, Quşçu Ayrım kəndləri istisna olmaqla digər kəndlərdə əkin işləri aparılır.

Taxıl səpini dövründə səpinlə birlikdə vermək üçün 170 ton amofos gübrəsi və taxılın biçinindən sonra yemləmə məqsədi ilə vermək üçün 1282 ton azot gübrəsi lazımdır ki, bundan da hal-hazırda 6 ton amofos və 260 ton azot gübrəsi vardır. Digər gübrələrin gətirilməsi avqust ayının sonunadək nəzərdə tutulmuşdur.

Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşovun diqqət və qayğısı, bilavasitə rəhbərliyi ilə rayonumuzda bütün sahələrdə olduğu kimi kənd təsərrüfatı sahəsində də daha böyük nailiyyətlər qazanacağıq.

İQTİSADİYYAT

"SAHİBKARIN ÖZÜ İŞLƏMƏSƏ"...

Dünya təcrübəsi göstərir ki, azad bazar iqtisadiyyatı və sahibkarlıq fəaliyyəti olmadan heç bir cəmiyyətin gələcəyə inkişafı ola bilməz. Ümummilli lider Heydər Əliyevin "Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur" fikrini rəhbər tutaraq, Azərbaycan dövləti sahibkarlıq fəaliyyətini qanunvericilik, inzibati-hüquq, büdcə, vergi və pul-kredit vasitəsi ilə tənzimləyir.

Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin 24 iyun 1997-ci il tarixli 610 nömrəli fərmanı ilə təsdiq etmiş "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığa dövlət köməyi Proqramı" tətbiq edilməyə başlamışdır. Bu proqramda qeyd edildiyi kimi Azərbaycan Respublikası sahibkarlarına kömək milli fondu, kiçik və orta sahibkarlığın inkişafına böyük dəstək verilir. Prezident İlham Əliyev tərəfindən sahibkarlığın inkişaf etməsi üçün fərman və sərəncamlar verilmişdir. Bütün bunların nəticəsidir ki, sahibkarlığın inkişafı üçün respublikamızda münbit və gözəl şərait yaradılmışdır. Odur ki, ölkəmizin inkişafı üçün mühüm əhəmiyyət kəsb edən sahibkarlıq ildən-ilə inkişaf edir.

Rayonumuzun I Şıxlı kənd sakini Natiq Məmmədova da sahibkarlıqla məşğul olmaq istəyən yüzlərlə insan kimi bu qanunlar, respublikamızda sahibkarlığın inkişafı üçün yaradılmış bu münbit şərait necə deyərlər, qol-qanad vermişdir. Bütün bunlardan ruhlanan və fəaliyyətini bu istiqamətdə qurmaq istəyən gənc sahibkar, sözün əsl mənasında qolunu çirməyib işə başlamışdır.

Natiq Məmmədovla görüşmək üçün onun yaratdığı I Şıxlı fermer təsərrüfatına getdim. Özünü tapmadım. Soruşanda işçiləri "Bu vaxtlar Natiqi tapmaq çox çətindir. Bir yerdə dayanmır ha. Gah fermada olur, gah ot biçinində, gah da qış üçün yem bazası yaratmaq üçün ora-bura qaçır " dedilər. Təəssüflənsəm də, bu, çox uzun sürmədi. Bir az keçmişdi ki, bir traktorun fermaya yaxınlaşdığını gördüm. Dayanandа içindən Natiq düşdü. Görüşdük və elə ayaq üstəcə söhbətə başladıq.

- Heyvandarlıqla 23 ildir ki, məşğul oluram, dedi -- Natiq Məmmədov. - Öz evimin həyətində maldarlıqla məşğul idim. Heyvanların kökəldilməsi və satışı idi əsas məşğuliyyətim bir vaxtlar. Son illər sahibkarlıq üçün respublikamızda yaradılmış münbit şəraitdən bəhrələnərək öz fəaliyyətimi genişləndirmək qərarına gəldim. Bu məqsədlə ilkin olaraq kəndimizdə kökəltmə kompleksi yaratdım. Hal-hazırda kompleksimizdə 170 baş mal saxlanılır.

Maldarlığın inkişaf etdirilməsi üçün möhkəm yem bazasının olması əsas şərtdir. Texnikanın olması da mühüm amillərdən biridir. Bu barədə söz düşəndə N.Məmmədov dedi:

- Mən elə ilk gündən yem bazasının möhkəm və keyfiyyətli olmasını nəzərə almışam. Bu məqsədlə öhdəmizdə olan 10 hektar yerdə taxıl və yonca əkmişik. Bu sahələrdən bu il yüksək səviyyədə məhsul götürdük. Nəticədə heyvanların qışlaması üçün yaxşı yem bazası yarada bilmişik. Bir sözlə, özümüz özümüzü yemlə təmin edirik.

Texnika sarıdan da korluq çəkmirik. Lizinq yolu ilə 1 ədəd traktor götürmüşəm. Hələlik bütün işlərimizi onunla görürük. Lakin bu, azlıq edir. Gələcəkdə daha bir neçə texnika almağı qarşıma məqsəd qoymuşam.

Sahibkarlığın inkişafında bazar məsələsi əsas rol oynayır. İstehsal edilən məhsulun dayanıqlı və gəlirli bazarı olmalıdır. Əks halda müəssisə tez bir zamanda iflasa uğraya bilər.

Bu haqda söz düşəndə N.Məmmədov optimist fikirlər söylədi. Dedi ki, hələlik bazar sarıdan korluq çəkmirik. Kökəldilmiş mallar əsasən rayonumuzda xeyir işlərinə verilir. Kəndimizdə ət satışı ilə də məşğul oluruq. Qoyduğumuz qiymətlər sərfəlidir. Ona görə də satış sarıdan problemimiz yoxdur.

Kökəltmə kompleksi barədə danışanda isə N.Məmmədov bildirdi ki, əl əməyini getdikcə azaltmağa çalışırıq. Hələlik yemləmə traktorla aparılır. Kompleks, eləcə də mallar su sistemi ilə təmizlənir. Gələcəkdə bütün işlərin texnika ilə görülməsi nəzərdə tutulmuşdur.

Bütün sahibkarlar kimi N.Məmmədovun da öz perspektiv inkişaf planları vardır.

- Hal-hazırda kompleksdə olan heyvanlar yerli cinslərdir. Düzdür, bu, hələlik necə deyərlər bizə əl verir. Pis deyil. Amma biz də xaricdən lizinq yolu ilə cins mallar almağı qarşımıza məqsəd qoymuşuq. Gələcəkdə cins südlük heyvanları lizinq yolu ilə almağı planlaşdırmışıq. İnanıram ki, yaxın vaxtlarda bu planı reallaşdıracağam. Ümidvaram ki, yüksək göstəricilər əldə edəcəyəm. Buna tam əminəm.

Söhbətimizin sonunda mən kompleksdə çalışanlardan da söz saldım. Bu sualıma N.Məmmədov özünəməxsus şəkildə cavab verdi:

- Düzdür, fermada hal-hazırda 8 nəfər çalışır. Hərənin də öz işi-gücü var. Amma sizə bir həqiqəti deyim. Sahibkar özü işləməsə heç nə alınan deyil. Ona görə də mən öz doğma işimdən bir an belə olsun ayrılmıram.

Elçin İSMAYIL

YENİ ANBAR TİKİLİR

I Şıxlı kəndində yeni kənd təsərrüfatı anbarı tikilir

Rayonumuzda kənd təsərrüfatı getgedə inkişaf edir. Bu sahənin inkişafının nəticəsidir ki, məhsul istehsalı durmadan artır. Bu da kənd təsərrüfatı məhsullarının saxlanılması üçün anbarların olması zərurətini yaradır. Bir sözlə, məhsul istehsalı artdıqca anbarlara ehtiyac yaranır.

Bunu nəzərə alaraq artıq bir aydan çoxdur ki, rayonumuzda yeni anbarın tikilməsinə başlanılmışdır. I Şıxlı kəndli fermer təsərrüfatı üçün inşa olunan bu anbar tam müasir üslubda tikilir. Tikinti üçün ayrılmış sahədə hal-hazırda 2 ədəd anbar inşa olunur ki, onların da tikintisi artıq başa çatmaq üzrədir. Tikinti başa çatandan sonra bu anbarlardan rayonumuzda istehsal olunan kənd təsərrüfatı məhsullarının saxlanılması üçün istifadə olunacaqdır.

Kənd təsərrüfatını texnikasız təsəvvür etmək mümkün deyildir. Bu məqsədlə yeni inşa olunan obyektdə maşın mexanizmlərin dayanması üçün talvar da tikilir.

Bununla yanaşı yeni tikilidə su anbarı, ofis binası və s. olacaqdır. Anbara gələn yol, eyni zamanda anbarın həyəti başdanbaşa beton olacaqdır.

I Şıxlı kəndli fermer təsərrüfatı üçün inşa olunan anbar "Ehram" MMC-nin inşaatçıları tərəfindən tikilir. İnşaatçılar üzərlərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlir, anbar binasının vaxtında və keyfiyyətlə tikilməsi üçün əllərindən gələni əsirgəmirlər. İş icraçıları Müşfiq Əhmədov və Mahir Qocayev tikintinin yüksək səviyyədə aparılmasına çalışırlar.

"GÖYƏZƏN"

Tütünçülüyün inkişafı diqqət mərkəzindədir

Müstəqilliyinin ilk illərində Azərbaycanda yeni iqtisadi sistemə keçidlə əlaqədar iqtisadiyyatın müxtəlif sahələrinin, o cümlədən kənd təsərrüfatının ənənəvi sahələrindən hesab olunan tütünçülüyün inkişafında müəyyən çətinliklər yaransa da, sonrakı illərdə dövlətimiz tərəfindən aparılan davamlı və sistemli iqtisadi islahatlar nəticəsində bu problemlər tədricən aradan qaldırıldı.

Təsadüfi deyildir ki, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə təsdiq olunan və Azərbaycanın regionlarının sosial-iqtisadi inkişafına yönəldilən dövlət proqramlarında kənd təsərrüfatının digər ənənəvi sahələri kimi, tütünçülüyün inkişafı da prioritet vəzifə olaraq qarşıya qoyulur. Digər tərəfdən, o da bəllidir ki, tütün iqtisadi əhəmiyyətinə görə Azərbaycanın ikinci texniki bitkisi sayılır. Ümumiyyətlə, bir sıra bölgələrimizin iqtisadiyyatında da tütünçülük sahəsi mühüm yer tutur. Son illər dövlətin bu sahəyə diqqətinin artması, tütünçülüyün bərpasına və inkişafına səbəb olub. Məhz bu baxımdan, istər bu sahədə peşəkar mütəxəssislərin, istərsə də tütünçülük sahəsi istiqamətində təsərrüfat yaradan sahibkarların sözlərinə görə, artıq tütünçülüyə böyük maraq yaranıb. Bu gün tütünçülüyün inkişafı günün tələbidir. Hər bir sahədə olduğu kimi, bu sahənin inkişafı da tələbatdan birbaşa asılıdır.

Rayonumuzda da bu il kənd təsərrüfatının digər sahələri kimi, tütünçülüyün inkişafına diqqət yetirilir. Belə ki, 10 hektar sahədə tütün əkilib becərilmişdir. Əsas məqsəd kənd təsərrüfatının ənənəvi sahələrindən olan tütünçülüyü dirçəltmək və kənd əhalisinin məşğulluğunu təmin etməkdən ibarətdir.

Hazırda Qazaxın bir sıra kəndlərində tütünçülüyə maraq yaranmış, kənd sakinləri tütün becərilməsinə başlamışdır Belə kəndlərdən biri də Cəfərli kəndidir. Bu kənd Ermənistanla sərhəddə yerləşir. Dağ kəndlərindən olan Cəfərli coğrafi ərazisinə görə də tütünçülüyün becərilməsi üçün olduqca əlverişlidir. Çünki tütünün məhsuldarlığı torpaq iqlim şəraitindən, tətbiq olunan aqrotexnikadan və becərilən sortun xüsusiyyətindən birbaşa asılıdır. Əlverişli cəhətinə görə kənddə əvvəllər də (müxtəlif illərdə) tütünçülüklə məşğul olunmuşdur. Artıq yetərincə təcrübəsi olan kənd sakinləri bu sahənin gəlirli sahə olduğunu bildirirlər. Bunu nəzərə alan sakinlər tütünçülüyə daha çox maraq göstərir.

Kənddə təsərrüfatçılar artıq bu istiqamətdə fəaliyyətlərini xeyli genişləndiriblər. Hal-hazırda kənddə 3 hektar sahəyə tütün əkilib. Kənd sakinləri iqlim şəraitinə uyğun olaraq yerli sort sayılan sivri yarpaq tütününü əkmişdir. Bu sort həm də Zaqatala iri yarpağı da adlanır. Bundan başqa məşhur Amerika sortu olan virciniya tütün sortundan da əkilmişdir. Rayonumuza ştillər Şəki şəhərindən gətirilmişdir. May ayından isə əkinə başlanılmışdır. Ümumiyyətlə, tütünçülüklə məşğul olan kənd sakinlərinin sözlərinə görə optimal əkin vaxtı 25 apreldən 20 maya qədər olan müddəti əhatə edir. Bunu nəzərə alan sakinlər vaxtında əkin işinə başlamışdır.

Tütünçülüklə məşğul olan sakinlər onu da qeyd etdilər ki, payızda dondurma şumu edilmiş sahələr, erkən yazda hava şəraiti imkan verən kimi rütubətli saxlamaq, onu lazımi qədər yumşaq və təmiz olmasını təmin etmək üçün malalanmalıdır. Bu əməliyyatdan sonra ştil əkilənədək xeyli müddət qalır. Bu müddətdə əmələ gəlmiş alaq otlarını məhv etmək üçün 2-3 dəfə 10-12 santimetr dərinlikdə kultivasiya edilməlidir. Ştil əkininin başlanması ilə qurtarması arasındakı müddət 15-20 gün olmalıdır.

Bu baxımdan kənddə torpaq əkilmiş, lazımi qulluq göstərilərək torpaq səpinə tam hazırlanmışdır. May ayından tütün ştilləri torpağa əkilmişdir.

Əkin sahəsində müxtəlif sortlarda əkilmiş tütünə qulluq etmək üçün bir qrup işçi cəlb olunmuşdur ki, bu da onların məşğulluğunun təmin edilməsi deməkdir.

Aqrotexniki tədbirlərin düzgün və vaxtında həyata keçirilməsinin nəticəsidir ki, tütün sahəsində istənilən göstərici əldə edilmişdir. Kənd sakinləri iyun ayından yığıma başlamışdır. Hal-hazırda tütünün dərilib qurudulma işləri davam etdirilir. Toplanan tütün isə Şəki Tütün Kombinatına təhvil veriləcəkdir. Bir sözlə, düşmənlə sərhəddə yerləşən kənddə qaynar həyat davam edir. Bunu əkin sahəsində çalışan kənd sakinlərinin əməksevərliyindən, sahədə ürəklə çalışmasından da daha aydın şəkildə görmək olur. Kənd sakinləri gələcəkdə daha çox sahədə tütün becərməyi düşünürlər.

Müqəddəs ziyarətgah - Şəhidlər Xiyabanı

Yuxarı Salahlı kənd Şəhidlər Xiyabanı

Bugün Qazaxda heç kimə sirr deyil ki, rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov fəaliyyətə başladığı ilk gündən şəhidlərimizə, onların ailə üzvlərinə xüsusi diqqət və qayğı göstərir, problemləri ilə yaxından maraqlanır. Bu mənada ilk olaraq şəhidlərimizin uyuduğu qəbiristanlıqlar, onların xatirəsinə ucaldılmış abidələr, parklar və xiyabanlar ziyarət olunmuş və onların abadlaşdırılması üçün lazımi tapşırıqlar verilmişdir.

Son zamanlar Qazax şəhərindəki, Daş Salahlı və Yuxarı Salahlı kəndlərindəki Şəhidlər Xiyabanları heç də ürəkaçan vəziyyətdə deyildi. Göstərilən laqeyd münasibətdən, baxımsızlıq ucbatından hər üç ünvanda pis vəziyyət yaranmışdı. Bu isə şəhidlərimizin doğmalarını, ailə üzvlərini haqlı olaraq narahat edirdi.

Verilən tapşırıqlar nəticəsində həmin yerlərdə dərhal tikinti-bərpa və abadlıq işlərinə başlanıldı. Şəhidlərimizin adına layiq məqsədyönlü işlər aparıldı. Görülmüş işlər Rəcəb Babaşovun şəhidlərimizə və onların ailələrinə göstərdiyi diqqət və qayğının əyani təzahürü idi.

Bu günlərdə aparılmış tikinti, abadlıq və yenidənqurma işlərindən, əsaslı təmirdən sonra Qazax rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşovun, aparatın məsul işçilərinin, hüquq mühafizə orqanlarının, SXÇDX Qazax rayon şöbəsinin əməkdaşlarının, idarə, müəssisə və təşkilat rəhbərlərinin, şəhid ailələrinin, müharibə veteranlarının, əlillərin, gənclərin, ictimaiyyət və KİV nümayəndələrinin iştirakı ilə Yuxarı Salahlı və Daş Salahlı kəndlərindəki Şəhidlər Xiyabanları ziyarət olunmuşdur. Əvvəlcə, hər iki kənddə şəhidlərin əziz xatirəsi anılmış və abidələri önünə tər qərənfil dəstələri qoyulmuşdur. Şəhidlərin ruhuna dualar oxunmuşdur.

Daş Salahlı kəndində şəhid bacıları Hicranə Məmmədova, Pəri Pənahova, şəhid anası Süreyya Cəbiyeva, kənd ağsaqqalı Mustafa Mahmudov, Yuxarı Salahlı kəndində isə şəhid anası Sona Kazımova və kənd ağsaqqalı Abdulla Məmmədov çıxış etmişlər. Hər iki kənddə çıxış edənlər şəhidlərə, onların ailə üzvlərinə göstərilən diqqət və qayğıya görə dövlət başçısı İlham Əliyevə dərin minnətdarlıqlarını bildirmişlər. Sonra məktəblilər şəhidlərin xatirəsinə həsr olunmuş şeirlər söyləmişlər.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşova rəhbər təyin olunan gündən şəhidlərimizə, onların ailə üzvlərinə göstərdiyi səmimi və doğma münasibətə, hərtərəfli köməyə və yardıma görə səmimi razılıqlarını ifadə etmişlər.

Rayon İcra Hakimiyyətinin Başçısı Rəcəb Babaşov hər iki mərasimdə çıxış edərək bildirmişdir ki, ölkəmizdə şəhidlərimizin əziz xatirəsi həmişə uca tutulur, daim yad olunur. Onlar həmişə qəlblərdə yaşayırlar. Şəhidlik ən yüksək zirvədir. Bu zirvəyə yalnız Vətənini canından artıq sevənlər yüksələ bilirlər. Bu gün ölkəmizdə şəhidlərimizə dövlət səviyyəsində xüsusi diqqət və qayğı göstərilir. Onların adı, xatirələri əbədiləşdirilir. Şəhid ailələrinə dövlətimizin köməyi və yardımı getdikcə daha da artır. Bu gün biz əminliklə deyə bilərik ki, şəhid ailələri dövlətimizin qayğısını hər an öz üzərlərində hiss edirlər. Şəhid adlarının əbədiləşdirilməsi, şəhid ailələrinin, Milli Qəhrəmanların, müharibə əlillərinin və veteranlarının sosial təminatının yaxşılaşdırılması məqsədilə dövlətimiz tərəfindən ardıcıl tədbirlər həyata keçirilir. Bu, həmişə belə olacaqdır.

Elçin İSMAYIL

Daş Salahlı kənd Şəhidlər Xiyabanı

CİDDİ SİQNAL

Çörək - Allahın bizə bəxş etdiyi ən böyük nemət, yer üzündəki cənnətdir. Çörək öpüb alnımıza qoyduğumuz ən ləziz təamdır. Bir zamanlar çörək babalarımızın namus, söz andı olmuşdur və bu gün də qalmaqdadır. Çörəyi Quran kimi müqəddəs bilir, and içirik. Bəlkə də dünyada bizim qədər çörəyə dəyər verən ikinci bir xalq yoxdur. Bir insanın namərdliyini, xəyanətini eşidəndə "çörəyi dizinin üstündə adamdır", "səni çörək tutsun" deyirlər.

ÇÖRƏK NECƏ DAŞINIR?

Bu gözəl deyimlərdən sonra bu gün çörəyə olan hörmətimizdən və ona göstərilən münasibətdən danışaq. Gəlin görək bu gün çörəyə, bu qədər müqəddəs saydığımız, yolda bir tikəsini tapanda götürüb yuxarı yerə qoyduğumuz, öpüb göz üstə saxladığımız bir nemətə lazımi qiymət veririkmi? Axı, niyə belə hörmətsizlik edirik?.

Qəzetimizin ötən saylarında rayonumuzda çörəyin acınacaqlı vəziyyətdə satılması və daşınması barədə bir neçə dəfə tənqidi məqalə dərc etmiş və onu tədbir görülmək üçün aidiyyatı təşkilatlara göndərmişik. Lakin demək olar ki, bu həyati və vacib məsələyə ciddi münasibət göstərilməmiş, aidiyyatı təşkilatlar cüzi tədbir görməklə öz işlərini bitmiş hesab etmişlər. Lakin məsələnin ciddiliyi isə əvvəlki kimi qalmışdır. Bu səbəbdən də həmin mövzuya yenidən qayıtmalı olduq.

Çörək 2 prosesdən keçir. Bişirilmə və daşınıb satılma prosesindən. Biz məsələnin birinci tərəfinə toxunmadan hamımızın hər gün qarşılaşdığımız çörəyin sexlərdən daşınması və onun satılması prosesi ilə dərindən maraqlandıq və qarşılaşdığımız mənzərə, gördüyümüz dəlil-sübutlar bu sahədə vəziyyətin acınacaqlı olduğunu, yəni heç də yaxşı olmadığını göstərdi. Açığını desək, biz birinci dəfə bu məsələyə toxunandan və aidiyyatı idarələrdən "kəsərli" cavablar alandan sonra vəziyyətin qənaətbəxş olduğu fikrində idik. Lakin deyir: "Sən saydığını say, gör çörək daşıyanlar nə sayır". Təəssüflər olsun ki, sözü gedən tədbirlərin, edilən xəbərdarlıqların bir nəticəsini görə bilmirik. Görülən tədbir ondan ibarət oldu ki, gözdən pərdə asmaq üçün sübh tezdən çörək daşıyan, günün qalan hissəsini isə sərnişin daşıyan həmin sınıq-salxaq maşınların içərisinə yeni bir əski parçası atılıb. Lakin bu gün həmin əski parçaları da elə bir vəziyyətdədir ki, sadəcə ayaqqabı silmək üçün belə yararlı deyil, desək, yanılmarıq.

Bir məsələ də olduqca ürəkağrıdıcıdır. Qazax kimi gözəl, yaraşıqlı bir şəhərdə ən köhnə, ən sınıq-salxaq, yararsız, el arasında deyildiyi kimi "cındır" maşınlarda çörək daşınır. Bu maşınların sayı isə bir deyil, beş deyil, onlarladır. Hələ içərisində elə maşınlar var ki, onları yalnız metalloma vermək olar. Nəinki, ən qiymətli nemətimiz olan çörək daşımağa. Belə ki, istismar müddəti başa çatmış VAZ-2106, VAZ-21011, QAZ 31 kimi və eləcə də digər markalı minik maşınlarından istifadə edirlər. Çoxlarınız düşünəcəksiniz ki, axı, burada nə var ki, maşın maşındır. Nə fərqi var? Xeyr, fərqi var. Özü də fərq çörəyin bu yararsız maşınların harasında daşınmasındadır. Belə ki, bu gün əksər sexlərdən çörəklər maşının yükdaşıma yerində, çox hallarda da ayaqaltılarında daşınır. Minik maşınlarının yük yerinə, yer olmadıqda isə oturacaqlara yığılan çörəklərin oradan mağazaya qədər uzanan yoluna diqqət edək. Təsəvvür edin, külək əsir, yaxud da isti yay günüdür. Tərin içində boğulmuş bir kişi maşından çörəyi mağazaya daşıyır. Bu zaman onun əlində nə əlcək var, nə də yaxasında bir önlük. Bu vəziyyətdə mağazaya çörək daşıyır, üstəlik çörəklər də birbaşa onun tərli qollarına, paltarına toxunur. Bu anormal vəziyyətdə mağazaya daşınan çörəklər çox isti olduğundan onu əlində uzun müddət saxlaya bilməyən şəxs tələsik çörəkləri hara gəldi qoyur. Satıcı da həmin qaydada çörəkləri özü bildiyi yerlərə yerləşdirir.

Maraqlı bir cəhət isə odur ki, bu gün ayaqaltında daşınan çörək böyük təmtəraqla satılır. Yəni mağaza satıcısı çörəyi tələsərək alan alıcıya belə "dayan paketə qoyum, əlində aparma" - deyir. Guya gigiyenik cəhətdən çörəyin açıqda aparılması düzgün deyil. Bu gözdən pərdə asmaq deyilmi? Biz görəsən kimi aldadırıq? Sizcə bərəkət bildiyimiz, and içdiyimiz çörəyin bu şəkildə çatdırılması nə dərəcədə düzgündür? Belə acınacaqlı vəziyyətə isə aidiyyatı təşkilatlar nədənsə göz yumurlar. Görəsən səbəb nədir?

Bundan başqa, gəlin razılaşaq ki, bu gün hərə bir çörək sexi açıb qaz vurub qazan doldurur. Özləri də xarici "Hunday", "Mersedes", "Cip" markalı maşınlar sürür. Belə maşınlar sürdükləri halda çörəyin normal şəkildə, gigiyenik qaydalara əməl edilərək daşınması üçün şərait yaratmağa doğrudanmı imkanları çatmır? Yəni bu sahibkarların təzə olmasa da orta vəziyyətdə çörək maşını almağa vəsaitləri yoxdurmu? Olmazmı ki, çörəkdən qazanılan pulun bir qismini də elə çörəyə ayırsınlar. Yoxsa bunu özlərinə israfçılıq sayırlar? Çörəyin "çörəyini yeyən" sex müdirləri görəsən bir gün bu çörəyə zəlil qalacaqlarını düşünürlərmi?

Bildiyiniz kimi çörək başqa yeyinti məhsulları tək nə yuyulur, nə də ki, silinir. Hansı şəraitdə bişirildiyindən və necə daşınmasından xəbərsiz bir halda isə biz həmin çörəyi alıb yeyirik. Xəstəliklərin artdığı indiki dövrdə isə bu olduqca təhlükəli və yolverilməzdir.

Bir məsələ də olduqca vacib və əhəmiyyətlidir. Bu gün mağazalarda satılan çörəklərdən əsl çörək ətri deyil, müxtəlif ərzaq qoxusu gəlir. Vaxt var idi ki, çörək üçün ayrıca köşklər fəaliyyət göstərirdi və hamı da bilirdi ki, çörəyi haradan almaq olar. Bu gün isə kim harada, necə gəldi iş qurub fəaliyyət göstərir. Çörək də harada gəldi satılır. Siqaretlə çörək bir yerdə. Biz isə bütün bunları görə-görə susuruq. Görəsən niyə? Fikrimizcə artıq şərhə ehtiyac yoxdur.

Yaranmış vəziyyətdə belə bir sual yaranır ki, bu cür şərait nə qədər davam edəcək, nə vaxta qədər çörəyə pis münasibət olacaq? Nə vaxta kimi çörəyə biganə yanaşacağıq? Ən əsası isə çörəyin dəyəri, hörməti özünə qaytarılacaqmı?

Bu sualların bir cavabı var: Yəqin biz bu gün o qədər bolluq içində yaşayırıq ki, artıq çörək göz çıxarır. Vaxt var idi ki, çörəyin bir diliminə ehtiyac var idi, saatlarla mağazalar önündə növbəyə düzülür, çörək gözlənilirdi.

"Şərikli çörək" filmini xatirimizdən keçirsək bütün bu sadaladıqlarımızı daha aydın görərik ki, bir çörəyin nə qədər qiyməti, dəyəri var idi. Uşaqlar böyüklərdən öyrənir çörəyə hörməti. Gəlin hamılıqla əlimizin ləziz Quranına hörmət göstərməyi bacaraq, çörəyi künc-bucaqda deyil, başımızın üzərində tutaq. Babalarımızın çörəyə sədaqətini bir daha göstərək. Unutmayaq ki, çörək Qurandan irəli gəlir.

Elçin İSMAYIL

"GÖYƏZƏN" ƏDƏBİ BİRLİYİ YARADILMIŞDIR

Qazax torpağı tarix boyu istedadlar yetişdirib. Bu elə əbəs yerə şairlər diyarı demirlər. Qazaxda böyüyüb boya-başa çatmış neçə-neçə şair və yazıçılar bu elin adını nəinki respublikamızda, eləcə də ölkəmizin hüdudlarında tanıtmışdır. Rayonumuzda istedadlı uşaq və yeniyetmələr bu gün də çoxdur.

Necə deyərlər, ənənə davam edir. Qəlbində yazmaq, yaratmaq həvəsi olan yeniyetmələr müntəzəm olaraq redaksiyaya gəlir, bizimlə sıx əlaqə saxlayırlar. Gənc yazarların şeir və hekayələri vaxtaşırı qəzetimizin səhifələrində dərc edilir. Bütün bunlara görədir ki, rayonumuzun heç bir istedadlı uşaq və yeniyetməsi diqqətimizdən kənarda qalmır. Özlərinə doğma ocaq saydıqları redaksiyamızdan bu zərif qəlbli uşaqlar heç vaxt naümid yola salınmır. Bu da onlarda böyük ruh yüksəkliyi yaradır, yeni axtarışlara sövq edir.

Neçə illərdir ki, redaksiyamızda "Göyəzən" ədəbi birliyi fəaliyyət göstərir. Birliyin yaradılmasında əsas məqsəd istedadlı yeniyetmələri üzə çıxarmaq, onlara düzgün istiqamət verməkdən ibarətdir. Hal-hazırda birliyin onlarla üzvü var. Üzvlərimizin sayı ildən-ilə artır. Hər həftə birlik üzvləri ilə toplantı keçiririk. Müxtəlif yaşlı bu istedadlı uşaq və yeniyetmələr toplantıya əliboş gəlmirlər. Onlar yazdıqları şeir və hekayələri bir az həyəcanlı, bir qədər sevincli görüşə gətirirlər. Yeniyetmələr öz şeirlərini, hekayələrini oxuyurlar. Və bütün bunlar müzakirə üçün öz ixtiyarlarına verilir. Sevindirici haldır ki, şeirlərin əksəriyyəti vətənpərvərlik mövzusundadır. Qazax rayon Xanlıqlar kənd tam orta məktəbin şagirdi Mələk İsmayılovanın "Azərbaycan əsgəri", şəhər 3 saylı tam orta məktəbin şagirdi Aytən Həsənovanın "Vətənim", "Qarabağım", Kosalar kənd tam orta məktəbin şagirdi Front Cəfərzadənin "Mübariz unudulmaz" şeirlərini dinləyəndə insanda böyük ruh yüksəkliyi yaranır. Bu onu göstərir ki, gələcək nəsil vətənpərvər ruhda böyüyür.

Əziz oxucularımız! "Göyəzən" ədəbi birliyi üzvlərinin yaradıcılıq məhsullarını müntəzəm olaraq qəzetimizin səhifələrində dərc edəcəyik. Və hər dəfə siz onların şeir və hekayələrini oxuyanda, rəsmləri ilə tanış olanda bu körpə fidanların necə böyük qəlbi olduğunun bir daha şahidi olacaqsınız. Onlardan birini bu sayımızda sizinlə tanış edirik:

Front Cəfərzadə. O, sadə bir azərbaycanlı ailəsində böyüyür. Kosalar kəndində onu sadəcə babasının adını daşıyan balaca Front kimi deyil, şair Front kimi də tanıyırlar. El şənliklərində, məclislərdə ona söz verərək sevə-sevə dinləyirlər. Frontun 12 yaşı var. Lakin yüzlərlə şeirin müəllifidir. "Göyəzən" ədəbi birliyinin rəhbəri Elçin İsmayıl bütün istedadlı yeniyetmələrə olduğu kimi Fronta da xüsusi diqqət və qayğı göstərir. Onun əsl şair kimi yetişməsi üçün əlindən gələni əsirgəmir. Fronta dəyərli məsləhətlər verərək yaradıcılıq yolunun necə çətin və keşməkeşli olduğunun sirlərini öyrədir.

Front Cəfərzadənin şeirlərini sizə təqdim edirik.

DÜNYA, QOCALIRAM MƏN

Çox illər ötüşübdür,
Dağlara çən düşübdür.
Yaşamaq da zülümdür,
Dünya, qocalıram mən.

Hər əzaba qatlanır,
Dünya elə fırlanır.
Ürəyim qanadlanır,
Dünya, qocalıram mən.

Sözün deyir cavanlıq,
Ömür sanki bir anlıq.
Dünyam oldu qaranlıq,
Dünya, qocalıram mən.

Dünya zəngin olsa da,
Çağlasa da, daşsa da.
Sevmirəm dünyanı mən,
Dünya, qocalıram mən.

Həyat böyük ümmandı,
Baş açmıram sözündən.
Həyat fani həyatdı,
Dünya, qocalıram mən.

Seyr edirəm dünyanı,
Su tək axar hər anı.
Bunları yada sal sən,
Dünya, qocalıram mən.

Bir gündə çiçək açmaz,
Belə bağban tapılmaz.
Bunları bilir aləm,
Dünya, qocalıram mən.

Gedir ömür qatarı,
Öldük üzü yuxarı.
Gözüm yumuldu birdən,
Dünya, qocalıram mən.

Bu həyatda biz yandıq,
Gah güldük, gah ağladıq.
Yaşlanırıq fikirdən,
Dünya, qocalıram mən.

Unudulur çox insan,
Tanınan var adınnan.
Mən tanındım şeirnən,
Dünya, qocalıram mən.

Front adlı şairəm,
Bir gün mən də ölərəm.
Öz sözümü deyərəm,
Dünya, qocalıram mən.

QƏLƏMİM YAZMIR DAHA

O qədər yazdım həyat qəmindən,
Neynəyim heç nə gəlmir əlimdən.
Qələmim yazmayır qurtarıb rəngi,
Həyatın yoxdur artıq ahəngi.

Şairəm yazdım hər şeyə şeir,
İnsan dayananda o, ölüb gedir.
Qələmimlə bitirdim hər bir sözümü,
Şeir yazanda mən ölürdümmü?

Aşığı sazsız görə bilmirəm,
Rəssamam fırçasız rəsm çəkirəm.
Bu hala baxıb ağlayır qələm,
Sanki onun üçün tək yanan mənəm.

Yazıram dərdimi köçürdüm bura,
Şeir təsəllidir and iç Qurana.
Qafiyə gəlir qəlbə, ürəyə,
Ey ürək hər zaman varam səninlə.

DÜZƏLİŞ

"Göyəzən" qəzetinin N-14 (9222) olan 31 iyul 2016-cı il tarixli sayında üçüncü səhifədə dərc edilmiş "Ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş beynəlxalq turnir" adlı məqalədə "Qazax rayon İcra Hakimiyyətinin və Azərbaycan Kikboksinq Federasiyasının birgə təşkilatçılığı, Gənclər və İdman Nazirliyi və "Qazax Süd Məhsulları"nın təşkilatı dəstəyi ilə ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş kikboksinq idman növü üzrə Azərbaycan və Gürcüstan Respublikalarının peşəkar idmançıları arasında ənənəvi beynəlxalq turnir keçirilmişdir" getmişdir. Həmin məlumat aşağıdakı kimi olmalıdır:

"Qazax rayon İcra Hakimiyyətinin və Azərbaycan Kikboksinq Federasiyasının, Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş kikboksinq idman növü üzrə Azərbaycan və Gürcüstan Respublikalarının peşəkar idmançıları arasında ənənəvi beynəlxalq turnir keçirilmişdir".

İTMİŞDİR

Mustafayeva Qaratel Baxşəli qızının adına verilmiş JN–162 nömrəli torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Baş redaktor: ELÇİN İSMAYIL

TƏSİSÇİ: QAZAX RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

ÜNVAN: QAZAX ŞƏHƏRİ, H.Z.TAĞIYEV KÜÇƏSİ 20
TELEFON: 5-02-00, (baş redaktor)
5-12-27 (şöbələr)
MOB: (055) 621-03-53

KAPİTAL BANK
BANK HESAB
№ AZ69AİİB38060019443660233136
VÖEN: 4200134061 KOD: 200361
QEYDİYYAT №442
TİRAJ: 2200 SİFARİŞ: 2277

Məqalələrdəki faktlara görə müəlliflər cavabdehdir. Əlyazmalar geri qaytarılmır.

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib.
Foto: Mehman Vələdov.